**Aytən Akif qızı Şükürova**

**UOT:339.13:339.13; JEL:Q10;Q17.**

# Azərbaycanın taxıl bazarı:reallıqlar və perspektivlər

***Xülasə***

*Tədqiqatın məqsədi – qlobal taxıl bazarında gözlənilən proseslər nəzərə alınmaqla Azərbaycanın taxıl bazarının konyunkturasını araşdırmaq və müvafiq ümumiləşdirmələr aparmaqla ölkənin iqtisadi və ərzaq təhlükəsizliyində rolunu elmi cəhətdən əsaslandırmaqdan ibarətdir. Tədqiqatın metodoloiyasi-araşdırılan problemlər üzrə məntiqi ümumiləşdirmə, müqayisəli statistik təhlil, sistemli yanaşma və emprik tədqiqat metodlarından ibarətdir. Tədqiqatın tətbiqi əhəmiyyəti-tələb və təklif nisbətinin balanslaşdırılması, itki və idxalın azaldırılması, istehsal və istehlak prosesində səmərəliliyin yüksəldilməsi istiqamətlərindən ölkənin taxıl bazarının inkişafı proqramının hazırlanması və tətbiqində istifadə edilə bilər. Tədqiqatın nəticələri - taxıl bazarının istehsal-istehlak zəncirində minimum itkiyə nail olmaq, həmçimim istehsalın artırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə bir sıra səmərəli mexanizm və vasitələr təklif edilmişdir. Tədqiqatın orjinallığı və elmi yeniliyi – COVİD-19 pandemiyası və torpaqlarımızın işğaldan azad edilməsindən sonrakı dövrdə ölkənin taxıl bazarında rəqəmsal - "ağıllı kənd təsərrüfatı"sistemi elementlərinin tətbiqi əsasında idxaldan asılılığın və itkilərin azaldılmasına, həmçinin bazarın inkişafını məhdudlaşdıran səbəblərin aşkar edilməsinin elmi əsaslandırılmasından ibarətdir.*

***Açar sözlər:*** *ərzaq, taxıl bazarı, qiymət, idxal, itki, satış, özünütəminetmə.*



## Giriş

Müasir taxıl bazarı Azərbaycanın ümumi bazarının mühüm elementi kimi, yalnız kənd təsərrüfatının deyil, həm də bütünlükdə iqtisadi məkanın daha çox inkişaf etmiş strateji seqmentlərindən biridir. Onun davamlı inkişafı isə öz növbəsində milli iqtisadiyyatın təkrar istehsal prosesinin xarakterinə uyğun olaraq, makroiqtisadi göstəricilərdəki dəyişikliklərə təsir edir. Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatında, taxıl bitkilərinin istehsalı isə onun aqrar-sənaye kompleksində (ASK) tarixən prioritet sahə olmuş və olmaqda davam edir. Ölkədə taxılın ümumi məhsulu 2015-ci ildəki 3,4 mlrd.manatdan 2020-ci ildə 5,0 mlrd. manatadək yüksəlmiş və respublikamızın ümumi daxili məhsulunda onun payı 0,7 faiz artaraq, təxminən 7,0 faizə yaxın olmuşdur. İqtisadiyyatın aqrar sektoru ölkənun ərzaq təhlükəsizliyinin formalaşmasına böyük təsir göstərir, taxıl bazarı isə kənd təsərrüfatı istehsalının strukturunda ərzaqla özünütəminatda başlıca rol oynayır və əhalinin həyat keyfiyyətinin indikatoru hesab edilir. Təkcə, 2021-ci ilin əvvəlinə ölkə əhalisinin 47 faizi kənd ərazilərində yaşamaqla məşğul əhalinin kənd təsərrüfatında payı 36,3 faiz təşkil etmişdir[6]. Dünya siyasi böhranının və rəqabət mübarizəsinin kəskinləşməsi şəraitində ölkənin ərzaq təhlükəsizliyi dövlətin iqtisadi istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir.

## Azərbaycanın taxıl bazarının reallıqları

Ölkəmizdə dövlətin aqrar sahəyə ardıcıl və davamlı dəstəyi sayəsində bu sahədə son illər dinamik inkişafa nail olunmuş və 2021-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 9163,4 mln. manat təşkil etmişdir ki, bu da 2020-ci il ilə müqayisədə 3,4 faiz çoxdur. Müqayisə edilən dövrdə istehsal edilən dəyərin 4511 mln.manatlığı və ya 49,2 faizi bitkiçlik məhsullarının payına düşmüş və artım surəti 4 faiz təşkil etmişdir [5]. Ölkənin ərzaq təhlükəsizliyi və ərzaq təminatı ilə bağlı əsas hədəflər

*©Aytən Akif qızı Şükürova, Azərbaycan Kooperasiya Universiteti, baş müəllim, dissertant.*
*E-mail: shukurovaaytən@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

strateji məhsulların daxili istehsalla əvəzlənməsinə, kənd təsərrüfatı məhsulları istehsalını artırmaqa, ərzaq bazarında tələb və təklifin tənzimlənməsinə və özünütəminetmə səviyyəsinin yüksəldilməsinə nail olmaqdır. Dünya təcrübəsində taxıl ölkənin ərzaq təhlükəsizliyi baxımından strateji məhsullar sırasında əsas yeri tutur və onun istehsalı bütünlükdə kənd təsərrüfatı istehsalının, xüsusilə bitkiçiliyin əsasını təşkil edir. Ölkəmizin iqtisadçı alimləri apardıqları araşdırmalarla təsdiq edirlər ki, inkişaf etmiş taxılçılıq istehsalına malik olmadan iqtisadi rayonları heyvandarlıq məhsulları istehsalına görə ixtisaslaşdırmaq, texniki bitkilərin istehsalını və kənd təsərrüfatının digər sahələrini inkişaf etdirmək mümkün deyil. Məlumdur ki, taxıl əsas ərzaq məhsulu olmaqla bərabər, həm də heyvandarlıq və quşçuluğun inkişafında önəmli yem bazası rolunu oynayır. Başqa sözlə, taxılçılığın inkişafı əhalinin mal, qoyun və quş əti ilə təminatına imkan yaradır və ölkənin ərzaq təhlükəsizliyinin əsas təminatçısına çevrilmiş olur. Bununla yanaşı, unutmaq olmaz ki, rəqabət şəraitində taxıl həm yem sənayesi və perspektivdə isə həm də bioistilik sənayesi üçün mühüm xammal mənbəyidir. E.A Quliyev göstərir ki, "ölkədə dənli bitkilərin istehsal potensuialının yenidən araşdırılması, bu sahədəki resursların obyektiv qiymətləndirilməsi, xüsusilə buğda istehsalının ölkə əhalisinin təlabatına uyğun şəkildə təmin edilməsi istiqamətində ayrıca strategiyanın və proqramın hazırlanması, bu mühüm qida məhsulu üzrə idxaldan asılılığın aradan qaldırılması hədəfi müəyyənləşdirilməli, əsas dənli bitkilərin istehsalı və ehtiyatlarının yaradılmasında əhəmiyyətli irəliləyişlərə nail olunmalıdır" [16]. Taxıl bazarı hər hansı milli iqtisadiyyat üçün mühüm sosial-iqtisadi əhəmiyyət kəsb edir. Azərbaycan iqtisadiyyatında onun xüsusi mövqeyi əsasən onunla şərtlənir ki, strateji əhəmiyyətli bu məhsuldan istehsal edilən çörək və çörək-bulka məmulatları ölkə əhalisinin əsas qida rasionunu təşkil edir, həm də o, dövlətin ərzaq təhlükəsizliyi və heyvandarlığın yem bazasının təminatçısı rolunu oynayır. B.X.Ataşov qeyd edir ki, "ərzaq təminatı baxımından kənd təsərrüfatının sahələri arasında taxılçılığın inkişafı xüsusilə böyük aktuallığa malikdir" [1].



Qlobal taxıl bazarında məhsullara artan təlabat və ölkəmizdə onun dinamik inkişafı ilə əlaqədar olaraq taxıl bitkilərinin istehsalının artımı üçün kifayət qədər zəruri resurslar vardır. Ölkədə təxminən əkin sahələrinin 61 faizini taxıl bitkiləri, onlardan da 60 faizə qədərini buğda sahəsi tutur[5]. Taxıl istehsalı kənd təsərrüfatı məhsullarının reallaşmasından əldə edilən gəlirlərin təxminən dörddə birinə yaxınını formalaşdırır. Hesablamalara görə, taxıl təsərrüfatına kənd təsərrüfatı istehsalına sərf edilən bütün məsrəflərin beşdən biri və kənd təsərrüfatı məhsul istehsalçılarının mənfəətinin yarısı taxıl təsərrüfatının payına düşür [23]. Taxılçılıq kənd təsərrüfatı istehsalına sərf edilən məsrəflərin nisbətən özünü tez ödəyən sahələrindən biridir. O, həmçinin kənd təsərrüfatı xammalının iri bazarı olub, bütün digər kənd təsərrüfatı və ərzaq bazarını formalaşdırır. Onun, məhsulu yeyinti sənayesi (qida məhsulları istehsalı) üçün xammal və heyvandarlıqda yem kimi istifadə edilir. Beləliklə, taxıl bazarının, daxili və xarici xarakterli müxtəlif amillərin təsiri altında fəaliyyət göstərən mürəkkəb və dinamik inkişaf edən iqtisadi sistem olduğu nəzərə çarpır.

**Dünya taxıl bazarının inkişaf problemləri**

Məlum olduğu kimi qlobal bazarda taxıl istehsalının həcmi ildən-ilə dönmədən artır. Müxtəlif informasiya mənbələrindən əldə olunan məlumatlara əsasən, 2022-ci ildə dünyada taxıl bitkilərinin iri istehsalçıları arasında ardıcıl olaraq Çin (383,7 mln.ton), ABŞ (319,8 mln.ton), Hindistan (146,8 mln ton), Rusiya (95,1 mln. ton) və Ukrayna (47 mln.ton) yer almışdır [22]. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına əsasən taxıl bitkilərinin dünya balansı göstəriciləri aşağıdakı cədvəldə verilmişdir. (Cədvəl 1).

**Cədvəl 1.**

**Dünya taxıl bazarı (mln.ton)**

| | 2017/18 | 2018/19 | 2019/20 | 2020 | 2021/22 | |
|---|---|---|---|---|---|---|
| **İstehsal** | 2694,3 | 2647,6 | 274,7 | 2776,6 | 2795,6 | 2798,6 |
| **Təklif** | 3518,3 | 3503,8 | 3544,3 | 3600,6 | 3626,5 | 3625,6 |
| **İstehlak** | 2659,4 | 2688,8 | 2711,8 | 2760,5 | 2801,6 | 2785,2 |
| **Ticarət** | 423,0 | 411,1 | 439,1 | 479,0 | 484,0 | 465,4 |
| **İl.son qalıq** | 856,8 | 832,6 | 824,0 | 831,0 | 835,8 | 850,7 |

Mənbə: BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) illik hesabatı[25].

Cədvəldən göründüyü kimi, 2021/2022-ci kənd təsərrüfatı ilində 2017-2018-ci təsərrüfat ili ilə müqayisədə qlobal taxıl bazarında istehsalın həcmi 101,3 mln.ton və ya 3,8 faiz, bazara təklif edilən məhsul 108,2 mln.ton və ya 3,1 faiz, istehlak 142,2 mln.ton və ya 5,3 faiz, əmtəəlik məhsulun reallaşdırılması isə 61 mln.ton və ya 14,4 faiz artmışdır. Müqayisə edilən dövrdə buğda bazarında istehsalın həcmi 1,8 faiz, bazara təklif 3,5 faiz, istehlak 4,6 faiz, satış isə 9,1 faiz yüksəlmişdir[25]. Ukraynada müharibənin humanitar fəlakətə çevrilməsi ərzaq böhranının növbəti mərhələsinə, ilk növbədə isə taxılın bahalaşmasına səbəb olmuşdur. Aktiv döyüşlər gedişində Azov və Qara dənizin şimal hissəsində Ukraynaya məxsus liman və taxıl terminallarının məhsul göndərməsində fasilələr yaranmışdır. İlkin məlumatlara görə, Rusiya taxılının xarici bazara ixracı yalnız 2022-ci ilin fevral ayının əvvəlinə 29 faiz azalmışdır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına əsasən, dünya buğda ixracı bazarında hazırki münaqişənin nəticələri bütün dünya üçün risk yaradır. Belə ki, ekspertlərin fikrincə, qlobal buğda ixracının dörddən birinə yaxını, başqa sözlə 29 faizi Rusiya və Ukraynanın payına düşür [17]. Məlumdur ki, dünyada baş verən bu neqativ amillər Azərbaycana öz təsirini göstərəcəkdir.

Qlobal problemlər, hərbi siyasi toqquşmalar və humanitar fəalkətin birbaşa nəticəsidir ki, dünya bazarında qiymətlərin artımı və manatın devalvasiyası səbəbindən 2020-ci ildə Azərbaycanda becərilən bütün əsas kənd təsərrüfatı məhsullarının da orta bazar qiyməti artmışdır. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi əvvəlki il ilə müqayisədə 105,6 faiz, o cümlədən taxıl məhsulları üzrə 103,9 faiz və buğda üzrə 106,9 faiz, istehlak qiymətləri indeksi isə 2,8 faiz yüksəlmişdir. Çörək, çörək məmumatları və yarmaların istehlak qiymətləri indeksi isə eyni dövrdə 132,5 faizə bərabər olmuşdur [8]. Azərbaycan Dövlət Ehtiyatları Agentliyinin (ADEA) yaranmasınadək Fövqəladə Nallar Nazirliyinin (FHN) tabeliyində olan Taxıl fondunun məlumatına əsasən, 2021-ci ildə ölkədə istehsal edilən taxıl üçün qəbul edilmiş keyfiyyət göstəricisinə cavab verən yüksək keyfiyyətli ərzaqlıq buğdanın tədarükü üçün istehsalçılardan bir ton buğdanın alış qiyməti 400 manat (2020-ci ildə 380 man.) müəyyən etdilmişdir [9].

**Azərbaycanda taxıl istehsalının artırılması ehtiyatları və perspektivləri**

Perspektivdə ölkənin taxılla özünütəminatında Azərbaycanın işğaldan azad edilmiş torpaqlarının əkinə cəlb edilməsi mühüm əhəmiyyət kəsb edəcəkdir. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, 2022-ci ildə Qarabağ və Şərqi Zəngəzurda təxminən 100 min hektar sahədə buğda və arpa əkini nəzərdə tutulmuşdur. Bütünlükdə Qarabağ regionunda aqrar istehsala yararlı olan bir mln.hektar ərazi, o cümlədən 128 min hektar suvarılan torpaq sahəsi vardır [19]. Nəzərə almaq lazımdır ki, 1990-cı ilə qədər ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının təxminən 40 faizə yaxını məhz hazırki Qarabağ iqtisadi rayonunun payına düşürdü. Ümumilikdə isə 250 min hektardan çox əkinə yararlı torpaqların böyük bir hissəsi taxılçılıq üçün istifadə edilirdi ki, bu da ölkənin ümumi istehsalının 14,3 faizini təşkil edirdi. Bu baxımdan demək olar ki, orta və uzunmüddətli perspektivdə işğaldan azad edilmiş



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ərazilərdə əkinə yararlı torpaqların əkin dövriyyəsinə qaytarılması ölkənin buğda ilə özünütəminetmə səviyyəsini mövcud 57 faizdən 65 faizə qədər artıra bilər [11]. Azərbaycanın kənd təsərrüfatının aparıcı sahəsi olan taxılçılığın inkişafı və taxıl bazarında mövcud vəziyyətin təhlili onu deməyə əsas verir ki, son on ildə bitkiçilik məhsullarının cəmi əkin sahəsində buğda əkininin cüsusi çəkisinin azalması istisna olmaqla, ölkənin taxıl təminatında xeyli irəliləyişlər vardır (cədvəl 2).

**Cədvəl 2.**

**Azərbaycanda taxılın yığımı, əkin sahəsi və istehlakı dinamikası**

| | 2010 | 2015 | 2020 | 2021 | 2021-ci ildə 2010-cu ilə nisbətən %,(+,-) |
|---|---|---|---|---|---|
| **Taxıl yığımı (ilkin çəkidə) min ton** | 2000,5 | 2999,4 | 3257,1 | 3363,0 | 168,1 |
| **o cümlədən:** | | | | | |
| **-buğda** | 1308,9 | 1687,7 | 1866,0 | 1885,4 | 144,0 |
| **Taxılın əkin sahəsi (min ha)** | 968,0 | 952,1 | 989,1 | 998,8 | 103,2 |
| **o cümlədən:** | | | | | |
| **-buğda** | 657,7 | 539,5 | 588,4 | 572,3 | 87,0 |
| **-buğdanın payı, %-lə** | 67,9 | 56,7 | 59,4 | 57,3 | -10,6 |
| **Taxılın məhsuldarlığı (sent.ha)** | 20,7 | 31,5 | 31,8 | 32,8 | 158,5 |
| **o cümlədən:** | | | | | |
| **-buğda** | 19,9 | 31,3 | 31,7 | 32,9 | 165,3 |
| **Bitkiçilik məhsullarının əkin sahəsində:** | | | | | |
| **-taxılın payı,%-lə** | 48,4 | 60,1 | 60,6 | - | +12,2 |
| **-buğdanın payı, %-lə** | 41,4 | 34,1 | 36,1 | - | -5,3 |
| **Adambaşına ildə taxıl istehsalı (təmiz çəkidə)kq.** | 218 | 307 | 318 | - | 145,9 |
| **Adambaşına ildə taxıl istehlakı** | - | 9,8 | 10,4 | - | 106,1 |
| **o cümlədən:** | | | | | |
| **-buğda** | - | 7,9 | 8,7 | - | 110,1 |

Mənbə:Azərbaycanın kənd təsərrüfatı (statistik məcmuə), 2021 [6, s.123-152].



Cədvəlin məlumatlarından göründüyü kimi, son on il ərzində, xüsusilə 2010-cu il ilə müqayisədə respublikamızda taxıl yığımı 68,1 faiz, o cümlədən buğda 44 faiz və taxılın əkin sahəsi 3,2 faiz artsa da buğdanın əkin sahəsi 13 faiz və buğdanın ümumi əkinində payı 10,6 faiz aşağı düşmüşdür. Buna baxmayaraq, müqayisə edilən dövrdə bütünlükdə həm taxıl məhsullarının, həm də onun aparıcı tərkib hissəsi olan buğdanın məhsuldarlığı hər hektardan uyğun olaraq 58,5 və 65,3 faiz yüksəlmişdir. Bununla yanaşı, ölkədə ərzaq təhlükəsizliyinin təminatı istiqamətində aparılan aqrar islahatların nəticəsi olaraq, bitkiçilik məhsullarının əkin sahəsində taxılın payı 12,2 faiz, adambaşına düşən illik taxıl istehsalı 45,9 faiz, istehlak isə 6,1 faiz, o cümlədən buğda üzrə 10,1 faiz artıma doğru meyil etmişdir. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin sədrliyi ilə 2022-ci ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədəki nitqində söylədiyi kimi, “Biz, ilk növbədə, ərzaqlıq buğdanın istehsalını artırmalıyıq. Çünki bizdə ümumi taxıl istehsalı ölkə tələbatının 60 faizini təşkil edir, ərzaqlıq buğda ilə isə biz özümüzü cəmi 25 faiz təmin edirik. Ona görə məsələ qoyulub ki, ərzaqlıq buğda ilə biz özümüzü ən azı 70-75 faiz təmin edək” [4]. Bu hədəfə çatmaq üçün qeyd edilən sahənin inkişafı istiqamətində islahatları sürətləndirmək və ona dövlət dəstəyi daha da gücləndirmək lazımdır. Azərbaycanda taxılın əsas istehsalçıları təsərrüfatçılığın müxtəlif formalarından biri olan fərdi sahibkarlıq, ailə kəndli və ev təsərrüfatlarından ibarətdir. 2020-ci ildə ölkədə taxılın əkin sahəsinin 85,6 və ümumi yığımın 84,1 faizi onların, 15,9 faizi isə kənd təsərrüfatı müəssisələrinin payına düşmüşdür [6, s.76,77]. Bütün bunlarla yanaşı, son illər ölkədə taxıl istehsalı və ehtiyatlarının artmasına baxmayaraq, idxal və itkilərin həcminin ildən-ilə aşağı düşməyə meyil etməsi xüsusi qeyd edilməlidir. Bunu

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Azərbaycanın ərzaq balansları əsasında apardığımız araşdırmaların nəticələri bir daha təsdiq edir (cədvəl 3).

**Cədvəl 3.**

**Azərbaycanda taxıl məhsullarının istehsalı, idxalı və itkilərin həcmi**

| Taxıl məhsulları | 2010 | 2015 | 2020 | 2020-ci ildə 2010-cu ilə nisbətən (%) (+,-) |
|---|---|---|---|---|
| **Taxıl ehtiyatları, min.ton (paxla,çəltik istisna):** | 4638,5 | 5751,8 | 5905,5 | 127,3 |
| **-istehsal** | 1924,8 | 2895,7 | 3141,8 | 163,2 |
| **-idxal** | 1484,4 | 1592,2 | 1472,0 | 99,2 |
| **-itki** | 231,9 | 225,6 | 220,9 | 95,3 |
| **Taxıl ehtiyatlarında payı (%):** | - | - | - | - |
| **-istehsal** | 41,5 | 50,3 | 53,2 | +11,7 |
| **-idxal** | 32,0 | 27,7 | 24,9 | -7,1 |
| **-itki** | 5,0 | 3,9 | 3,7 | -1,3 |
| **Buğda ehtiyatları, min.ton:** | 3504,1 | 3849,7 | 4047,8 | 115,5 |
| **-istehsal** | 1272,3 | 1639,8 | 1818,7 | 142,9 |
| **-idxal** | 1330,1 | 1353,1 | 1365,1 | 102,6 |
| **-itki** | 209,3 | 189,4 | 184,2 | 88,0 |
| **Buğda ehtiyatlarında payı (%):** | - | - | - | - |
| **-istehsal** | 36,3 | 42,6 | 44,9 | +8,6 |
| **-idxal** | 38,0 | 35,1 | 33,7 | -4,3 |
| **-itki** | 6,0 | 4,9 | 4,6 | -1,4 |
| **Taxıl ilə özünütəminetmə səviyyəsi (%)** | - | 64,5 | 68,1 | +3,6 |
| **o cümlədən:** | - | | | |
| **-buğda** | | 54,8 | 57,1 | +2,3 |

Mənbə:Azərbaycanın ərzaq balansları (statatistik məcmuə)-2021 [7,s.20,21,75].

Azərbaycanın ərzaq balanslarına əsasən, apardığımız hesablamalara görə, çox yaxşı haldır ki, 2020-ci ildə 2010-cu ul ilə müqayisədə ölkəmizdə taxıl məhsullarının (paxlalı və çəltik istisna olmaqla) ehtiyatları 27,3 faiz və yerli istehsal 63,2 faiz artsa da, idxalın həcmi 0,8 faiz və itkilər 4,7 faiz azalmışdır. Müqayisə edilən dövrdə taxıl ehtiyatlarının ümumi həcmidə yerli istehsalın payı 11,7 faiz artmış, idxal və itkinin səviyyəsi isə uyğun olaraq 7,1 və 1,3 faiz aşağı düşmüşdür. Bütün bunlara baxmayaraq, 2020-ci ildə ölkənin taxıl məhsulları ilə özünütəminat səviyyəsi 3,6 faiz, o cümlədən buğda ilə təminat 2,3 faiz yaxşılaşmışdır. Hökumətin buğda təminatı ilə bağlı proqnozlarına görə, orta müddətli dövr üzrə ölkəmizin buğda ilə özünütəminetmə səviyyəsinin 65-70 faizə qədərinin daxili istehsal hesabına ödəniləcəyi, buğda əkin sahəsinin 2025-ci ildə təqribən 660 min.ha. 2030-cu ildə təqribən 690 min.ha. çatdırıla biləcəyi, məhsuldarlığın isə müvafiq olaraq 33,2 sent./ha və 35 sent./ha çatacağı ehtimal olunur. Bu halda ölkədə buğda istehsalının həcmi 2025-ci ildə təqribən 2,2 mln.ton, 2030-cu uldə isə təqribən 2,4 mln.ton, idxalın həcmi isə təqribən 1,3 mln. ton olmaqla, özünütəminetmə səviyyəsi müvafiq olaraq 63 və 67 faizə yüksəlmiş olacaqdır[3]. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, 2030-cu il üzrə məhsuldarlıq səviyyəsi nəzərə alınmaqla ölkənin buğda ilə özünütəminetmə səviyyəsinin yaxşılaşdırılması üçün əlavə təqribən 400 min ha. əkin sahəsi tələb olunur. İşğaldan azad edilmiş ərazilərin əkin dövriyyəsinə qaytarılması proqnozların daha da artmasına, yəni buğda təminatının bir qədər də artacağına əsaslı zəmin yaradır.

Kənd təsərrüfatı məhsulları bazarında mövcud vəziyyəti nəzərə alaraq respublika səviyyəsində taxılın satış bazarının reallaşdırılması sisteminin təkmilləşdirilməsinin başlıca istiqamətlərindən biri iri əmtəəlik taxıl istehsalçılarını birləşdirən taxıl assosiasiyasının yaradılmasından ibarət ola bilər. Assosiasiya daha əlverişli bazar qiyməti konyunkturasından istifadə əsasında məhsulu sonradan reallaşdırmaq məqsədilə onun saxlanması və daşınması



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

üçün kifayət qədər modern satış infrastrukturuna malik olmalıdır. Xırda və orta məhsul istehsalçısı olan fərdi sahibkarlar-fermerlər taxılın müəyyən hissəsini bilavasitə yaradılması zəruri olan təchizat-satış kooperativləri vasitəsilə və ya bazarda sata bılərlər. Taxılın satış bazarının inkişaf sisteminin təkmilləşdirilməsi istiqamətlərinə onun və emal məhsullarının satış kanallarının genişləndirilməsi daxil edilir. Lakin bu halda topdan vasitəçilərin rolunun azaldılmasına yol verilməməlidir. Məlum olduğu kimi, mövcud institusional mexanizmə və satış infrastrukturuna malik taxıl qəbulu məntəqə və elevatorları, həm öz adından, həm də dövlətin bazar agenti rolunda çıxış edirlər. İ.H.İbrahimov elmi araşdırmalarında "respublikada istehsal olunan taxılın 35-40 faizinin müxtəlif kanallarla satıldığını [13,s.391], Kənd Təsərrüfatı Nazirliyi isə ölkədə istehsal edilən buğdanın 87,7 faizinin əmtəəlik məhsul [15] oduğunu göstərmişdir. Beləliklə, apardığımız araşdırmaların nəticəsi olaraq deyə bilərik ki, son illər respublikamızın kənd təsərrüfatı müəssisələrində taxılın iqtisadi səmərəlilik göstəricilərində xeyli fərqli meyllər müşahidə edilir (cədvəl 4).

**Cədvəl 4.**

**Azərbaycanın kənd təsərrüfatı müəssisələrində taxılın iqtisadi səmərəlilik göstəriciləri**

| Göstəricilər | 2010 | 2015 | 2020 | 2020-ci ildə 2010-cu ilə nisbətən (%) |
|---|---|---|---|---|
| **İstehsal edilən 1 sentner məhsulun maya dəyəri (manat)** | 14,91 | 16,44 | 16,37 | 109,8 |
| **o cümlədən:** | | | | |
| **-fərdi sahibkar təsərrüfatlarında** | - | 12,86 | 20,85 | 162,1 |
| **1 sentner məhsulun orta satış qiyməti (manat)** | 24,79 | 23,96 | 34,16 | 138,8 |
| **o cümlədən:** | | | | |
| **-fərdi sahibkar təsərrüfatlarında** | - | 20,40 | 35,73 | 175,1 |
| **1 sentner məhsula əmək məsrəfi (adam/saat)** | 9,9 | 11,0 | 8,5 | 85,9 |
| **o cümlədən:** | | | | |
| **-fərdi sahibkar təsərrüfatlarında** | - | - | - | - |
| **Reallaşdırılan məhsulların rentabelliyi, %** | 39,8 | 47,3 | 39,5 | -0,3 |
| **o cümlədən:** | | | | |
| **- fərdi sahibkar təsərrüfatlarında** | - | 46,6 | 49,4 | +2,8 |

Mənbə: Azərbaycanın Kənd Təsərrüfatının məlumatları (statistik məcmuə) - 2021[6,s.23,31].

Cədvəldən göründüyü kimi, 2020-ci ildə 2010-cu ilə nisbətən respublikamızda kənd təsərrüfatı müəssisələrində istehsal edilən taxılın 1 sentnerinin maya dəyəri 1,46 manat və ya 9,8 faiz, 1 sentnerinin satış qiyməti 9,37 manat və ya 38,8 faiz artmışdır. Təəssüf ki, reallaşdırılan adlçəkilən məhsulun rentabellik səviyyəsi müqayisə edilən dövrdə 0,3 faiz aşağı düşmüş, fərdi sahibkar təsərrüfatlarında isə 2,8 faiz yüksək olmuşdur [6,s.23,31]. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına əsasən buğdanın 65 faizi normal su resursları olmayan yerlərdə becərilir. Ölkəmizdə 170 min təsərrüfat taxıl əkir, onların təxminən 100 mini su ilə tam təmin edilmir və bu amil becərilən buğdanın keyfiyyətinin aşağı düşməsinə səbəb olur.

**Nəticə**

Araşdırmalar göstərir ki, respublikada taxıl bazarının bir qədər zəif inkişafı və özünütəminatda hələlik idxaldan xeyli asılılığın olmasının başlıca səbəblərindən biri, ölkədə əkinə yararlı torpaq sahələrinin azlığı, əlverişsiz təbii-iqlim şəraiti, taxılın yetişmə dövründə havaların həddən artıq isti keçməsi, yetişdirilən taxılın, xüsusilə ərzaqlıq buğdanın keyfiyyətinin aşağı olması, su təminatı, ərazilərimizin uzun müddət Ermənistan işğalı altında qalması və digər problemlərlə bağlı olmuşdur. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpadan və yenidənqurmadan, torpaqların minadan təmizlənməsindən sonra 2022-ci ildə təxminən 50 min hektardan çox sahədə taxıl əkini aparılması və resurslarımızın artması ilə ölkənin taxıl bazarında kifayət qədər inkişafa nail olmaq mümkün olacaqdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**

1.Ataşov B.X. Azqrar sahədə struktur və səmərəlilik problemləri (Nəzəriyyə və praktika) /B.X.Ataşov- Bakı:Kooperasiya,-2017. - 536 s.
2.“Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi” publik hüquqi şəxs yaradılması haqqında.//Azərbaycan Respublikası Prezidentinin 07 oktyabr 2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.Azərbaycan, 2021, 8 oktyabr.
3.Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi.//Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.-Bakı:Qanun,2016.-144 s.
4.Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 2022-ci ilin birinci rübünün yekunlarına həsr edilmiş müşavirədə nitqi./“Azərbaycan” qəzeti, 2022, 13 aprel №75.
5.Azərbaycanın statistik göstəriciləri – 2021 Rəsmi nəşr (statistik məcmuə) Bakı:DSK-2021, 6. Azərbaycanın Kənd Təsərrüfatı, 2021 (Statistik məcmuə) Bakı:DSK, 2021. 773 s.
7.Azərbaycanın ərzaq balansları- 2021 (Statistik nəcmuə) Bakı:/DSK, 2021., 121 s.
8.Azərbaycanda qiymətlər, 2021 (2, 31MB)Statistik nəcmuə/Bakı:DSK, 2021.78 s
9.”Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları”.//Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 105 nömrəli qərarı ilə təsdiq edilmişdir:[Elektron resurs]URL: http://faoLex.fao.orq/docs/pdf/aze 161792.
10.https://www.atm./qov//az/az/news/539/azerbaycanın-buğda-ile-özünüteminat-seviyyesi-60-f/
11.https://www.zertag.az/xeber/Qlobal_Azerbaycana tesirleri-1969845.(07.01.2022)
12.Xəlilov, H.A. Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti (Monoqrafiya)/H.A.Xəlilov.Bakı: “Mütərcim”,- 2005.-228 s.
13.İbrahimov, İ.H. Aqrar sahənin iqtisadiyyatı (Monoqrafiya)/ İ.H.İbrahimov Bakı: ”NBS.Printinq Company” MMC -2016.-655 s.
14.Kənd Təsərrüfatı Nazirliyi:[Elektron resurs]URL:https://e-maiL.ru/message/ 15605138361847552O6/tmpL.
15.Quliyev, E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləi və strateji istiqamətləri (Monoqrafiya)/E.A.Quliyev.- Bakı:. “Kooperasiya”,2020 - 464 s.
16.Ölkə əhalisinin ərzaq tələbatı uğurla həll edilir./”Respublika” qəzeti, 2022, 6 aprel s.6.
17.Rusiyadan taxıl idxalına məhdudiyyət.[Elektron resurs] URL https://:www. bbc.com/azer/Azerbaycan - 60733323.
18.”Taxıl haqqında” Azərbaycan Respublikasının Qanunu//Azərbaycan Respublikası Prezidentinin 16 iyun 2000-ci il tarixli 898-İQ nömrəli Fərmanı-Bakı: 2000: https://www e-qanun./az/ framework/631.
19.Axundov, X. Азербайджан и развивающийся мировой рынок зерна: caliber.az/ru/post/62959/.
20.Алабушев, А.В. Функционирование рынка зерна России в современных условиях:http://zhros.ru/num31 (1)2014/ pdf./1 Alab. pdf.
21.Берегатнова, Е.В. Рынок глубокой переработки зерна РФ: состояние, перспективы:https://dcenter/hse/ru/data/2017/03/10 1169322892.
22.Зерновые культуры: https://www.ru:wikipedia orq/WİKİ//.
23.Kopnenko, Г.Г.Основные тенденции развития производства и рынка зерновых культур в России и мировые пространстве. https://www ytws/ villi/az country/.10089/htmL.
24.Мировой рынок зерна продовольственное обеспечение населения земли-www/vspmr:orq./information/expert-opinion/mirovoy-rinok-i-prodovolstvennoe-obespecenue-naseleniya-zemli//
25.Публикуемая ФАО сводка предложения зерновых и спроса на зерновые. 2022: food situation/csdb/ru.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Айтен Акиф кызы Шукюрова***

***Зерновой рынок Азербайджана: реалии и перспективы***

***Резюме***

*Цель исследования – состоит, учитывая зарубежный опыт, рассматривать конъюнктуры как производство, потребление, цены, импорт, уровень самообеспечения и др. вопросов рынка зерна Азербайджана и с проведением соответствующего обобщения, научно обосновать их роль в экономической и продовольственной безопасности страны.Методология исследования - сформированы с логическим обобщением, сравнимым- статистическим обобщением, сравниваемым статистическим анализом, системным подходом и эмпирическим методом исследования по рассматриваемым проблемам. Практическая значимость исследования- полученные результаты по балансированию отношения спроса и предложения, уменьшение потерь и импорт, направление на повышение эффективности в процессе производства и потребления, в процессе производства и потребления в рынке зерна могут быть использованы в разработке и применение программы развития зернового рынка страны. В результаты исследования предложены ряд эффективных механизмов и инструментарий в целях достижения потерь до минимума, в цепь производства и потребления, также увеличение производств и повышение эффективности в рынке зерна. Оригинальность и научная новизна исследования – заключается в формировании более современных подходов и взглядов по усилению увеличения производства и сокращения потерь и импорта после пандемии и COVID-19 и постконфликтна в Карабахском экономическом районе за счет применения элементов системы «умные сельские хозяйства» и также с выявлением причины ограничения развития рынка зерна.*

***Ключевые слова:*** *продовольствие, зерновые рынка, цена, импорт, потери, сбыт, самообеспеченность.*



***Ayten Akif Shukurova***

***Azerbaijan's grain market:realities and prospects***

***Summary***

*The purpose of the study is, taking into account foreign experience, to consider the conjuncture as production, consumption, prices, imports, the level of self-sufficiency and other issues of the grain market in Azerbaijan and, with an appropriate generalization, to scientifically substantiate their role in the economic and food security of the country. Research methodology formed with logical generalization, comparable-statistical generalization, comparable statistical analysis, systematic approach and empirical method of research on the issues under consideration. The practical significance of the study - the results obtained on balancing the relationship of supply and demand, reducing losses and imports, aiming at increasing efficiency in the production and consumption process, in the production and consumption process in the grain market can be used in the development and application of the country's grain market development program. As a result of the study, a number of effective mechanisms and tools are proposed in order to achieve losses to a minimum in the chain of production and consumption, as well as increasing production and increasing efficiency in the grain market. The originality and scientific novelty of the research lies in the formation of more modern approaches and views to enhance the increase in production and reduce losses and imports after the pandemic and COVID-19 and post-conflict in the Karabakh economic region through the use of elements of the "smart agriculture" system and also with the identification of the cause restrictions on the development of the grain market.*

***Key words:*** *food, grain market, price, import, losses, sales, self-sufficiency.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 19.05. 2022.***
***Çapa qəbul olunub: 26.05.2022.***

*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az